# Ağstafada 20 Yanvar həqiqətlərinin dünyaya çatdırılmasında Heydər Əliyevin rolundan danışıldı

**Ağstafada "20 Yanvar həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılmasında Ümummilli Lider Heydər Əliyevin rolu" mövzusunda "dəyirmi masa" keçirilmişdir.**

"Dəyirmi masa" iştirakçıları əvvəlcə Ulu Öndər Heydər Əliyevin, 20 Yanvar faciəsi qurbanlarının və torpaqlarımızın azadlığı uğrunda canından keçən şəhidlərimizin əziz xatirəsini birdəqiqəlik sükutla yad ediblər. Sonra Ağstafa Rayon İcra Hakimiyyətinin başçısı Seymur Orucov tədbiri giriş sözü ilə açaraq o müdhiş gecədə törədilən vəhşilikləri bir daha yada salmış, bu soyqırımının dünya ictimaiyyətinə çatdırılmasında Ulu Öndər Heydər Əliyevin xidmətlərindən danışmışdır. Qeyd etmişdir ki, Ümummilli Lider 20 Yanvar faciəsini xalqımıza qarşı törədilmiş bəşəri cinayət adlandırmış, bu faciənin xalqımızın həyatında böyük hüzn yaratmasına baxmayaraq, həmin günü xalqımızın qürur və qəhrəmanlıq tarixi kimi qiymətləndirmişdir.

Bildirmişdir ki, faciənin səhəri Azərbaycanın Moskvadakı nümayəndəliyinə gələrək xalqımızın haqq səsini bütün dünyaya çatdıran Heydər Əliyevin prinsipial siyasi mübarizəsi sayəsində 20 Yanvar faciəsi öz siyasi-hüquqi qiymətini almışdır.

Sonra söz "dəyirmi masa" iştirakçılarına verilmişdir. Onlar öz çıxışlarında Heydər Əliyevin zəngin həyat yolundan danışmışlar. Onu da bildirmişlər ki, Heydər Əliyev hər zaman 20 Yanvar faciəsi qurbanlarının xatirəsinin əbədiləşdirilməsinə, onların ailələrinə dövlət qayğısının artırılmasına xüsusi diqqət yetirmişdir. Vurğulanmışdır ki, Şəhidlər xiyabanındakı "Əbədi məşəl" abidə kompleksi də Heydər Əliyevin təşəbbüsü ilə ucaldılmışdır.



***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

Azərbaycan.- 2023.-20 yanvar.- S.12.